# İxtisas üzrə Məmnuniyyət Sorğusu

**Tarix: 28.04.2025-04.05.2025**

Bu hesabat, Yüksək texnologiya və innovativ mühəndislik məktəbində (**ixtisaslar: İnformasiya Təhlükəsizliyi, Kompüter Mühəndisliyi, İnformasiya Texnologiyaları, Kompüter Elmləri, Biologiya, Su Bioehtiyatları və Akvakultura, Ekologiya, Meşəçilik**) təhsil alan tələbələrin ixtisas məmnuniyyəti səviyyəsinin qiymətləndirilməsi məqsədilə keçirilmiş sorğunun nəticələrinə əsaslanır.

Sorğu ümumilikdə **270 nəfər** tələbənin iştirakı ilə həyata keçirilmişdir. Toplanan məlumatlar, tədris prosesinin təkmilləşdirilməsi, tələbə məmnuniyyətinin artırılması və idarəetmə ilə bağlı qərarların daha əsaslandırılmış şəkildə qəbul olunması məqsədi daşıyır.

Sorğu nəticələri əsasında tələbələrin tədris keyfiyyəti, infrastruktur, müəllim fəaliyyəti, praktik imkanlar və ümumi təhsil mühitinə dair fikirləri təhlil olunmuş, əsas narahatlıqlar və inkişaf təklifləri sistemləşdirilərək təqdim edilmişdir.

İxtisaslarınız:




1. **Tədris olunan fənlər ixtisasımın müasir texnologiyalara və sahənin tələblərinə uyğun inkişafını təmin edir:**



## 2.Praktik dərslər və laboratoriya işləri nəzəri biliklərimi daha yaxşı mənimsəməyimə kömək edib:

- Razıyam 169
- Razı deyiləm 101




## 3.Tədris proqramı müasir texnoloji yenilikləri və sahəvi inkişafları nəzərə alır:

- Razıyam 197
- Razı deyiləm 73




## 4.İxtisasım üzrə tədris, məlumatların effektiv idarə edilməsi və analitik düşünmə bacarıqlarımı inkişaf etdirir:

- Razıyam 195
- Razı deyiləm 75



## 5. Seçdiyim ixtisasın əmək bazarında rəqabətə davamlı və tələbatlı olduğuna inanıram:




## 6. İxtisas üzrə təhsil və ümumi tədris prosesi ilə bağlı əlavə fikir və təklifləriniz:

Sorğu nəticələrinə əsasən, tələbələrin əksəriyyəti ixtisas məmnuniyyətini ifadə etsə də, tədris prosesinin təkmilləşdirilməsinə dair bir sıra təkliflər irəli sürülmüşdür. Ən çox qeyd olunan məsələlər bunlardır:

- **Laboratoriya və praktiki məşğələlərin artırılması:** Xüsusilə informasiya təhlükəsizliyi, biologiya və meşəçilik ixtisaslarında təhsil alan tələbələr laboratoriya dərslərinin sayının artırılmasını, müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalara mütəmadi çıxışın təmin olunmasını vacib hesab edirlər. Bəzi hallarda laboratoriya dərsləri nəzərdə tutulsa da, onların faktiki keçirilmədiyi bildirilib.
- **İxtisasla əlaqəsi olmayan fənlərin azaldılması:** Tələbələr qeyri-ixtisas fənlərinin sayının çoxluğunu qeyd etmiş və bu fənlərin ixtisas dərsləri ilə əvəz olunmasını təklif etmişlər.
- **Təcrübə imkanlarının genişləndirilməsi:** Tələbələr təcrübə proqramlarının sayının artırılmasını və sənaye ilə əməkdaşlığın gücləndirilməsini vacib hesab edirlər.
- **Müəllim fəaliyyətinə dair qeydlər:** Bəzi tələbələr müəllimlərin qiymətləndirmə meyarlarının qeyri-obyektiv olduğunu və dərs materiallarının gec təqdim edildiyini bildiriblər.
- **Texniki təminat və şərait:** Kompüter avadanlıqlarının yenilənməsi və daha müasir auditoriyaların təmin olunması ilə bağlı təkliflər qeyd olunmuşdur.
- **Tədrisin təşkili ilə bağlı əlavə fikirlər:** Tələbələr dərslərin daha interaktiv, maraqlı və tətbiq yönümlü keçirilməsini, eyni zamanda beynəlxalq platformalardan istifadə imkanlarının yaradılmasını təklif etmişlər.

Ümumilikdə, tələbələrin əksəriyyəti tədris prosesindən razı olduğunu ifadə etmiş, lakin praktiki bilik və bacarıqların artırılması, tədris mühitinin yaxşılaşdırılması və daha müasir yanaşmaların tətbiqi ilə bağlı konkret təkliflər vermişdir.